yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur









2 GÖRÜNMƏYƏN TƏLƏBƏLƏR

3 YAŞAMAQ YOXSA İNTİHAR?

4 XARİCDƏ TƏHSİL

5 DİNİ MƏSƏLƏLƏR ÜZRƏ DÖVLƏT AGENTLİYİNİN NÜMAYƏNDƏ HEYƏTİ TÜRKİYƏYƏ RƏSMİ SƏFƏR EDİB

HAQQIN SÖZÜ - SÖZÜN HAQQI

# Yeni YOL

15 APREL 2018-Cİ İL

№005 (64)

## GİRESUNDA GÜRCÜSTAN, TÜRKİYƏ VƏ AZƏRBAYCANIN MÜDAFİƏ NAZİRLƏRİNİN GÖRÜŞÜ KEÇİRİLİB



Türkiyənin Giresun şəhərində Gürcüstan, Türkiyə və Azərbaycanın müdafiə nazirlərinin görüşü baş tutub. Türkiyənin müdafiə naziri Nurettin Canikli həmkarlarına səfər üçün təşəkkür edib və üç ölkənin ümumi problemlərindən söhbət açıb. Görüşün sonunda Gürcüstanın müdafiə naziri Levan İzoria, Türkiyənin müdafiə naziri Nurettin Canikli və Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov əməkdaşlığın daha da dərinləşdirilməsi üçün hazır olduqlarını müdafiə sahəsində əməkdaşlıq memorandumunu imzalamaqla təsdiqləyiblər.

Birgə mətbuat konfransında həmkarlar üçtərəfli görüşün nəticələrini və müdafiə sahəsində əməkdaşlıq memorandumu çərçivəsində planlaşdırılmış layihələri müzakirə ediblər.

Levan İzorianın bəyanatına görə, üç ölkənin əməkdaşlığı regionda nümunəvidir: "Sevinirəm ki, memorandum imzalandı. Bu əməkdaşlığın daha geniş formatını nəzərdə tutur və illər ərzində əldə etdiyimiz dinamikanı təsvir edir. Memorandum bizə gələcək inkişaf üçün yaxşı əsas verir".

Levan İzorianın Türkiyəyə səfəri paytaxt Ankarada Milli Müdafiə Nazirliyində görüşlə başlayıb. Orada Gürcüstan müdafiə nazirini həmkarı Nurettin Canikli qarşılayıb. Ankaradan müdafiə naziri heyət üzvləri ilə birgə üçtərəfli görüşdə iştirak etmək üçün Giresun şəhərinə səfər edib. Nazirlə görüşmək üçün hava limanına Gürcüstanın Türkiyədəki diaspora nümayəndələri də gəliblər.

## TÜRKİYƏ, RUSİYA VƏ İRAN SURİYA BÖHRANINA DAİR BƏYANAT İMZALAYIB



Aprelin 4-ü Ankarada Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan, Rusiya prezidenti Vladimir Putin və İran prezidenti Həsən Ruhani arasında Suriya böhranının tənzimlənməsinə həsr olunan üçtərəfli görüş keçirilib. Görüşdə Suriyadakı mövcud vəziyyət qiymətləndirilib, atəşkəs rejiminin gücləndirilməsi, dağıdılmış ərazilərdə yaşayışın təmin edilməsi üçün əlavə addımlar nəzərdən keçirilib.

Görüşdən sonra Türkiyə, Rusiya və İran prezidentlərinin Suriyada sülhə nail olunması istiqamətində əməkdaşlığın davam etdirilməsinə dair Bəyanat imzalanıb.

Bəyanatda vurğulanır ki, Türkiyə, Rusiya və İran DAEŞ və digər terror qruplaşmalarının tam məhv edilməsi üçün əməkdaşlığı davam etdirmək niyyətindədir.

"Prezidentlər DAEŞ, Cəbhət ən-Nusra və digər terror təşkilatları ilə əlaqəsi olan qruplaşmaların tam məhvinə nail olmaqda israrlıdırlar", - deyə Bəyanatda qeyd olunur.

## REGİONAL İNKİŞAF VƏ İNFRASTRUKTUR NAZİRİ İSTEFA VERİB



Gürcüstanın regional inkişaf və infrastruktur naziri Zurab Alavidze vəzifəsini tərk edib. Baş nazir Giorgi Kvirikaşvili keçirdiyi brifinqdə bildirib ki, Zurab Alavidze öz istəyi əsasında istefa verib.

Z. Alavidzenin yerinə hökumət administrasiyasının rəhbəri Maia Tskitişvili təyin olunub.

Qeyd edək ki, Z.Alavidze 2016-cı ilin noyabrında regional inkişaf və infrastruktur naziri təyin olunub. Maia Tskitişvili isə 2012-ci ilin noyabrından hökumət administrasiyasının rəhbəri vəzifəsində çalışıb.

## PASXA BAYRAMI İLƏ ƏLAQƏDAR 64 MƏHBUS ƏFV OLUNUB



Gürcüstan prezidenti Giorgi Marqvelaşvili Pasxa bayramı ilə əlaqədar 64 məhbusu əfv edib. Bu barədə Gürcüstan Əfv Komissiyasının sədri Zviad Koridze aprelin 4-də keçirdiyi brifinqdə məlumat verib. O, prezidentin 64 nəfəri əfv etdiyini bildirib. Onların sırasında azərbaycanlılar da var.

Əfv olunan 64 məhbusdan 41-i aprelin 4-ü cəzaçəkmə müəssisəni tərk edib. Qalan 23 məhbusun cəzası azaldılıb. Əfv olunanlardan 3–ü qadın, biri isə azyaşlıdır.

Z. Koridzenin sözlərinə görə, komissiyada, ümumilikdə, 335 məhbusun müraciətinə baxılıb.

Qeyd edək ki, Cəzaların İcrası və Probasiya Nazirliyinin məlumatına əsasən, prezident Giorgi Marqvelaşvili 2013-cü ilin dekabr ayından bu günədək 3 655 məhkumu əfv edib.

## APRELİN 6-SI ÖLKƏDƏ MATƏM ELAN OLUNUB

Gürcüstan hökumətinin qərarı ilə Tkibuli bölgəsindəki Mindeli kömür mədənində insan tələfatı ilə nəticələnmiş faciə ilə bağlı aprelin 6-sı ölkədə matəm günü elan olunub.

Gecə saatlarından etibarən Gürcüstanın hökumət administrasiyası, parlamentin Tbilisi və Kutaisidəki binaları, nazirliklər və digər qurumlarda dövlət bayraqları endirilib.

Qeyd edək ki, Mindeli kömür mədənində baş vermiş uçqun zamanı 6 mədənçi ölüb, 3-ü isə ağır xəsarətlər alıb.



# GÖRÜNMƏYƏN TƏLƏBƏLƏR

Azər Musaoğlu
azermusaoghlu@gmail.com

***Kim ki, bilir, o iş görür. Kim ki, iş görə bilmir, o öyrədir. Öyrədə bilməyən isə dekan olur. (Tomas Martin Lauri)***

***Bu günün tələbəsi sabahın müəllimi, həkimi, mühəndisi, hüquqşünası, incəsənət xadimi, alimidir... Bu günün tələbəsi sabahdır, gələcəkdir – millətin, ölkənin gələcəyi, sağlam cəmiyyətin qurucusu, eyni zamanda quracağı cəmiyyətin təməlidir. Bu təməl möhkəm olmalıdır ki, sonrakı nəsil onun üzərində dayana, ucala bilsin. Həmçinin bu təməlin geniş olması üçün tələbələrin sayı çox olmalıdır.***

Bu gün Gürcüstanın ali məktəblərində azərbaycanlı tələbələrin sayının artdığını, 2000-dən çox tələbəmizin olduğunu hər yerdə fəxarətlə deyirik. Əlbəttə sevindirici haldır. Sevindirici hal tək kəmiyyət deyil, keyfiyyət də olmalıdır. Keyfiyyəti görmək üçünsə təbii ki, zaman lazımdır. Bu öz yerində. Amma mən nədənsə o 2000-dən çox olan tələbələri görmürəm. Görmürəm dedikdə birbaşa fiziki mənanı nəzərdə tuturam, yəni bizim tələbələri nə sərgi salonlarında, nə teatrlarda, nə muzeylərdə, nə müsabiqələrdə, yarışlarda (idmandan tutmuş incəsənət, ədəbiyyat yarışlarına kimi), nə tədbirlərdə, müxtəlif mövzuda təşkil olunan təlimlərdə, nə təcrübə proqramlarında, nə, nə, nə... "Nə"ləri artırmaq da olar. Deyəcəksiz ki, tələbənin yeri universitetdir, kitabxanadır. Axı kitabxanalarda da bizim tələbələr görsənmirlər. Bəs 2000-dən çox sayı olan tələbələrimiz haradadır görəsən? Dərsdən kənar vaxtlarını harada və necə keçirirlər? Mən 20-30 nəfəri bu sehirli papaq taxıb görünməyən tələbələrin arasında axtarmıram. Onlar onsuz da görünürlər və hamımız onları yaxşı tanıyırıq. Amma söhbət 2000-dən çox tələbədən gedirsə 20-30 nəfər çox azdı.

Bəs bu 2000-dən çox tələbə universitetə nəyə gedir görəsən? Siqaret çəkib, xaçapuri yeməyəmi? Dörd-beş ildə öyrəndikləri nə olur? Gürcü dilimi? Axı gürcü dilini öyrənmək üçün universitet bitirməyə gərək yoxdur. Dil bilmək savad, elm göstəricisi deyil axı. Danışmağı tutuquşuya da öyrətmək olur. Hərəkət etmək lazımdır. Cəmiyyətimizə tərcüməçilər lazım deyil (onsuz da dili hamı öyrənməlidir və zaman keçdikcə gürcü dilini bilənlərin sayı artır). Cəmiyyətimizə bilikli həkimlər, mühəndislər, alimlər, müəllimlər lazımdır. Elmləri gürcü dilində öyrənənlər lazımdır. Səhv başa düşülməsin, mən dil öyrənməyin əlehinə deyiləm. Amma gürcü dilində roman tərcümə edə biləcək tələbə mən tanımıram. Müəllim demiş, müəllim mövzusu yaralı yerimizdir. Yaşlı müəllimlər getdikdən sonra məktəblərimizdə kimlər dərs deyəcək? Məktəblərə kimya, fizika, riyaziyyat, biologiya, coğrafiya müəllimləri lazımdır. Bizim tələbələri bu ixtisas sahələrində də görmək olmur. Əksəriyyət humanitar fakultələrdə təhsil alırlar. Məktəblərdə gənc kadrlar çox azdı, barmaqla sayılacaq qədər. Əksəriyyət diplomunu alan kimi biznesə qaçır.

Ümumiyyətlə, indi oxumaq, öyrənmək üçün tələbə olmurlar, indi diplom almaq, başqasının uşağından fərqlənməmək (geridə qalmamaq) üçün tələbə olurlar. İndi tələbəlik bir dəbdir. Hətta seçdikləri ixtisası belə bir-biri ilə bəs gələrək seçirlər. Bu elə bir mövzudur ki, köşə yazısına sığmır. Bu haqda uzun yazmaq, diskussiyalar etmək olar.

Əlbəttə bizim həqiqi tələbə adına layiq olanlarımız da var. Yuxarıda da qeyd etdiyim kimi, sayları çox azdır və fəaliyyətləri də göz qabağındadır. Onları hamımız görürük. Qəzetimizin səhifələrindən tutmuş xarici ölkələrdəki yüksək ali məktəblərdə onların adına rast gələ bilərsiniz. Onlar bacardıqları qədər ölkəmizdə keçirilən bütün mədəni, elmi tədbirlərdə iştirak edirlər, təhsillərini təkmilləşdirmək məqsədləri yolunda yorulmadan çalışırlar, oxuyurlar, öyrənirlər. Ümid də elə onlaradır. Təməl onlar olacaqlar. Kiçik təməl üstə böyük bina inşa etmək olmadığı kimi, təməl də böyük olmalıdır. Hər yerdə və həmişə olduğu kimi, əsas kəmiyyət deyil, əsas keyfiyyətdir. Keyfiyyətimizlə fəxr edək.

***P.S. Fürsətdən istifadə edərək qeyd etmək istəyirəm ki, qəzetimiz yazı yazmağı bacaran, deməyə sözü olan tələbələrimizin üzünə həmişə açıqdır. Belə bir arzu və istəyi olanlar sadəcə yazılarını yeni_yol@mail.ru ünvanımıza göndərə bilərlər.***

# HÖKUMƏT ADMİNİSTRASİYASINA YENİ RƏHBƏR TƏYİN OLUNUB



Şalva Tadumadze Gürcüstanın hökumət administrasiyasının yeni rəhbəri təyin olunub.

Bu barədə Gürcüstanın baş naziri Giorgi Kvirikaşvili hökumətin iclasında bəyan edib.

Şalva Tadumadze 2012-ci ildən hökumətin parlament katibi vəzifəsində çalışıb.

Qeyd edək ki, hökumət administrasiyasının keçmiş rəhbəri hazırki regional inkişaf və infrastruktur naziri Maia Tskitişvili olub.

## DÖVLƏT ORQANLARINA QARA RƏNGLİ AVTOMOBİLLƏRİ ALMAQ QADAĞAN OLUNUB

Hökumətin qərarı ilə dövlət orqanları tərəfindən qara rəngli avtomobillərin alınmasına qadağa qoyulub. Qərar nazirliklərə, onların tabeçiliyində olan ictimai hüquqi şəxslərə, hökumət administrasiyasına və yerli idarəetmə orqanlarına da şamil edilir.

Qeyd edək ki, 2017-ci ilin noyabrında baş nazir Giorgi Kvirikaşvili qara ciplərin alınmasını tənqid edib və keçmiş daxili işlər naziri Giorgi Mğebrişviliyə tapşırıq verib ki, məmurların qara ciplərdə hərəkət etməsi məhdudlaşdırılsın. 2018-ci ilin 2 fevral tarixində baş nazir bir daha qara ciplərlə məmurların hərəkət etməsi haqqında tənqidi bəyanat verib. Onun sözlərinə görə, Gürcüstanda qara ciplər dövrünün bitməsi zamanıdır, çünki bu, hamını, eləcə də onu qıcıqlandırır.

## AZƏRBAYCAN VƏ GÜRCÜSTAN SƏRHƏDYANI RAYONLARI ƏMƏKDAŞLIĞI GÜCLƏNDİRİR

Tbilisidə Azərbaycan-Gürcüstan Ərazi Əməkdaşlığı Proqramına start verilib.

Azərbaycan və Gürcüstandan 6 birgə layihə Avropa İttifaqının qrantı üzrə tenderin qalibi olub.

Almaniya Beynəlxalq Əməkdaşlıq Təşkilatının (GİZ) proqram üzrə ekspert qrupunun rəhbəri Nataliya Alxazişvili bildirib ki, layihələr iki ölkə arasında əlaqələri möhkəmləndirəcək: "Bu əməkdaşlıq Azərbaycan və Gürcüstanın sərhədyanı regionlarının sosial-iqtisadi inkişafına təkan verəcək".

Almaniya Beynəlxalq Əməkdaşlıq Təşkilatının məsləhətçisi Fariz Qarayev layihələrə ümumilikdə 1,35 milyon avro məbləğində vəsaitin ayrıldığını diqqətə çatdırıb: "Layihələr Gürcüstanın Kvemo Kartli və Kaxeti bölgələri və Azərbaycanın Şəki-Zaqatala və Gəncə-Qazax iqtisadi rayonlarında QHT və dövlət qurumları ilə birgə həyata keçiriləcək. Kənd təsərrüfatı, turizm, gənclər, mədəniyyət və digər sahələr üzrə layihələrin icra müddəti 12 ay təşkil edir".

# HÖKUMƏT YENİ SÜLH TƏŞƏBBÜSÜ İLƏ ÇIXIŞ EDİB



Baş nazir Giorgi Kvirikaşvili hökumət iclasında yeni "Uğurlu gələcəyə addım" adlı sülh təşəbbüsünü təqdim edib.

G. Kvirikaşvili bildirib ki, Gürcüstan hökuməti barışıq siyasəti çərçivəsində konkret addımlar atır: "Bu addımların məqsədi Tsxinvali regionu və Abxaziyada yaşayan əhalinin sosial-iqtisadi və humanitar şəraitinin yaxşılaşdırılması, həmçinin ümumi maraqlara əsaslanan münasibətlər və əlaqələrin təşviqidir".

Baş nazirin sözlərinə görə, sülh təşəbbüsləri üçün qanunvericiliyə düzəlişlər paketi üç əsas istiqaməti nəzərdə tutur: "Birinci istiqamət bölücü xətt üzrə ticarətin genişləndirilməsidir. İkinci və üçüncü istiqamətlər isə əlavə keyfiyyətli təhsilə yiyələnmənin asanlaşdırılması və ölkənin inkişafı nəticəsində əldə olunmuş rifah və faydalardan yararlanmaq üçün mexanizmlərin yaradılmasıdır".

## ÖLKƏDƏ İQTİSADİ ARTIM 5,5% TƏŞKİL EDİB

Fevral ayında Gürcüstanda ÜDM-in artım tempi 5,5% təşkil edib. Gürcüstanın Milli Statistika İdarəsinin məlumatına əsasən, yanvar-fevral aylarında ÜDM 4,9% artıb.

Fevral ayının digər əsas iqtisadi göstəricilərinə əsasən, Gürcüstanda istehlak qiymətləri yanvar ayı ilə müqayisədə 0,2% artıb, xarici ticarət dövriyyəsinin həcmi isə 16,3% artaraq 1 milyard 683,5 min dollar təşkil edib.

Fevral ayında Gürcüstanda 4 250 müəssisə qeydiyyata alınıb ki, bu da yanvar ayına nisbətdə 12,9% çoxdur. Dövlət büdcəsinin gəlirləri 693,1 milyon lari, xərcləri isə 683,9 milyon lari təşkil edib.

## ƏRDOĞAN İSRAİLİ TERROR SİYASƏTİ YÜRÜTMƏKDƏ İTTİHAM EDİB



Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan İsrailin baş naziri Binyamin Netanyahunu Türkiyə ordusunun guya mülki əhaliyə qarşı cinayətlər törətməsinə dair ittihamlarına görə sərt tənqid edib və öz növbəsində, Tel-Əvivi terror siyasəti yürütməkdə ittiham edib.

R. T.Ərdoğan Netanyahunu qəribə və absurd bəyanatlar verməkdə günahlandırıb: “Türkiyə terrorçuluqla qətiyyətli mübarizə apardığı halda, İsrail cinayətkarlıqla mübarizə aparmaq əvəzinə terror siyasəti yürütməkdə davam edir”.

Türkiyə prezidenti Netanyahunu fələstinlilərə təzyiq siyasətindən və Ankaranı tənqid etməkdən əl çəkməyə çağırıb: “Netanyahu səmimi olmalıdır və Türkiyəni tənqid etməyə son qoymalıdır”.

Qeyd edək ki, Türkiyə XİN-i bundan əvvəl Tel-Əvivi dinc etirazçılara qarşı həddindən artıq gücdən istifadə etməkdə ittiham edib və İsraildən buna son qoymağı tələb edib. Daha sonra R.T.Ərdoğan İsraili sərt tənqid edib.

## TÜRKİYƏDƏ AKKUYU ATOM ELEKTRİK STANSİYASININ TƏMƏLİ QOYULUB



Türkiyədə Akkuyu Atom Elektrik Stansiyasının 1-ci blokunun təməlqoyma mərasimi keçirilib. Rəcəb Tayyib Ərdoğan və Vladimir Putin videokonfrans vasitəsi ilə mərasimə qatılıblar.

Rusiya prezidenti Vladimir Putin bildirib ki, AES istifadəyə verildikdən sonra Türkiyə istehlakçılarını ucuz və təmiz enerji ilə təmin edəcək: “Birinci blokun Türkiyə Cümhuriyyətinin 100 illiyi ərəfəsində – 2023-cü ildə istifadəyə verilməsi nəzərdə tutulub. Stansiyanın istehlakçıların 10 faiz tələbatını ödəyəcəyi planlaşdırılır”.

Daha sonra çıxış edən Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan deyib ki, bu gün dünya Türkiyənin inkişafı və enerji sahəsində Türkiyə-Rusiya münasibətlərində tarixi bir hadisəyə şahid olur: “S-400, “Türk axını” və indi təməlini qoyacağımız Akkuyu Atom Elektrik Stansiyası iki ölkə arasında birgə layihələrdən bir neçəsidir. İki ölkə Suriyadakı terror təhdidi və toqquşmaların sona yetməsi ilə bağlı da əməkdaşlıq edir. Türkiyə 2023-cü ildən etibarən nüvə enerjisi istehsalından istifadə edən ölkə olacaq”.

## ƏRDOĞAN: RUSİYA VƏ TÜRKİYƏ BÖLGƏDƏ SÜLHÜN BƏRQƏRAR OLMASI ÜÇÜN BİRGƏ İŞİ DAVAM ETDİRƏCƏKLƏR



Rusiya və Türkiyə bölgədə sülhün və stabilliyin bərqərar olması istiqamətində birgə intensiv işi davam etdirəcəklər. Bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Ankarada rusiyalı həmkarı Vladimir Putinlə görüşündən sonra bildirib.

“Bütün bu görüşlər regionumuza fayda gətirəcək”, - deyə Ərdoğan Türkiyə-Rusiya Yüksək Səviyyəli Əməkdaşlıq Şurasının iclasında bildirib.

O, Şuranın iclasından əvvəl V.Putinlə təkbətək görüş keçirdiyini, danışıqlar zamanı regional və beynəlxalq məsələlərin müzakirə edildiyini xatırladıb.

## TÜRKİYƏ VƏ RUSİYA “S-400”-LƏRİN TƏDARÜK QİYMƏTİNƏ DAİR RAZILIĞA GƏLİBLƏR



Moskva və Ankara “S-400” raket-zenit komplekslərin tədarük qiymətinə dair razılığa gəliblər . Bunu Rusiya prezidenti Vladimir Putin Ankarada türkiyəli həmkarı R. T. Ərdoğanla görüşündən sonra bildirib.

V.Putin bildirib ki, tərəflər hərbi-texniki sahədə Rusiya-Türkiyə əməkdaşlığının vəziyyətini, xüsusən, “S-400” raket-zenit komplekslərinin Türkiyəyə tədarükü layihəsinin reallaşdırılmasını müzakirə ediblər.

“Biz icraatı sürətləndirdik və qiymətlərlə bağlı razılığa gəldik, bu çox vacibdir”, - deyə Putin qeyd edib.

## YAŞAMAQ YOXSA İNTİHAR?



Hacı Bəkiroğlu
*hacibakir@mail.ru*

***İnsan bu dünyada olan varlıqların ən şərəflisi, ən üstünü olaraq yaradılıb. Ancaq sonra pis əməlləri ilə özü özünü aşağı və zəlil hala gətirib. Bu sözləri niyəmi deyirəm? Çünki Allah bizi yaratdıqdan sonra bütün varlıqları biz insanların əmrinə verib. Biz isə bu gözəllikləri görməyib hər zaman üsyana qalxmışıq.***

İnsan bu dünyaya gəlir, bir ömür yaşayır, qurub-tikir, yaradılış qayəsi olan ibadətini edir (kimisi də üsyanda olur) və vədəsi tamamlandığında bu dünyaya gözlərini yumur. Bunun da adına qədər deyirik. Ancaq bəzi insanlar öz səhvləri ucbatından problem yaşayır, ziyana düşür və bu qədərə razı qalmayıb canlarına bir şəkildə qəsd edərək həyatlarına son vermək istəyirlər – yəni intihar edirlər. Bu son kimisində alınır, kimisində də alınmır. Bəs nədir intihar? İntihar Allahın insana vermiş olduğu həyatı onun icazəsi olmadan sona çatdırmaq istəyidir.

Son zamanlarda bölgəmizdə bu cür hadisələrin çoxalması bu mövzuda yazmağıma məni vadar etdi.

Əzizlərim, gəlin bir düşünək, bu intihar bir qurtuluş yoludurmu? Məncə yox. Hər gecənin bir səhəri olduğu kimi, hər çətinliyin də bir çarəsi vardır. İlk öncə insan düşünərək hərəkət etməlidir ki, sonda peşmanlıq duymasın. İnsanoğlu bu yola əl atmazdan öncə bir düşünmür ki, bu insan öz səhvi ucbatından çəkdiyi çiləyə, əziyyətə son qoysa da bu dünyada geridə qalanlarına dərd, kədər qoyur. Bu hadisələrə bir ictimai qınaq da olmadığı təqdirdə insanlar son çarəni bu yolda görürlər. Problemlər qarşısında böhrana düşən, ümidini itirən və bir çıxış yolu görə bilməyən insanlar intihara yönələ bilərlər. Bir müsəlmanın bu vəziyyətə düşməsi mümkün deyil. Allah Təala belə buyurmuşdur: “Allahın rəhmətindən ümid kəsməyin. Çünkü Allahın rəhmətindən ümid kəsənlər yalnız onu tanımayanlardır.” (Yusuf, 87)

Gəlin bir də bu mövzuya dini nöqteyi nəzərdən baxaq. Qurani Kərimdə Maidə surəsinin 29-cu ayəsində “Özünüz özünüzü öldürməyin”, buyurur. Yenə eyni surənin 32-ci ayəsində “...Kim bir cana qıymış olsa bütün insanları öldürmüş kimi olar. Kim də bir canı qutarmış olsa bütün insanlığı qurtarmış olar...”, deyə buyurulur. Həzrət Peyğəmbər də “Kim özünü bir dağdan ataraq intihar etsə o, Cəhənnəm atəşində özünü həmişə atəşə atıb durar. Sonsuza qədər belə davam edər. Kim zəhər içərək intihar etsə Cəhənnəm atəşi içində zəhəri əlində onu içib durar. Sonsuza qədər belə davam edər. Kim bir dəmir parçasıyla intihar etsə dəmir parçası əlində Cəhənnəm atəşi içində onu özünə vurub durar. Sonsuza qədər belə davam edər”, buyurub.

İstər Qurani Kərimdə, istərsə də hədisi şəriflərdə bir neçə nümunə üzərindən intiharın böyük günah olduğuna və acı nəticələrinə diqqət çəkmişdir. Çünki çətinliklərə sinə gərmək, ağrıya və kədərə qarşı səbir göstərmək, şərtlər nə dərəcə pis olursa olsun Allaha olan inanc və etibarı itirməmək müsəlmanın təməl xarakteri olmalıdır. Üstəlik bu yolda göstərilən səbir və mübarizənin Allah qatında böyük bir əcri və dəyəri vardır. Quranda həyatda qarşılaşılan çətinlik və problemlərin bir imtahan vasitəsi olduğu, bunlara qarşı səbir və mətanət göstərildiyində yaxşı müsəlman olunacağı tez-tez xatırladılmışdır.

***İslam insana yaradılışı, həyatın məqsədi və həyat sonrası aləm haqqında doyurucu, tutarlı və bütünlük daşıyan bir inanc və məlumat verdiyi, həyatın acı və şirin – hər istiqamətinə ayrı bir məna verərək müsəlmanın məlumat və iradəsini bu istiqamətdə hazırlayıb öyrətdiyi üçün, müsəlman cəmiyyətlərdə intihar hadisələri yox deyiləcək qədər azdır. Ancaq İslam şüur və inancının zəiflədiyi, İslamın insanla və dünya həyatıyla əlaqədar təməl mesajının yaxşı qavrana bilmədiyi toplumlarda, cinsi böhran, eşq, xəyanət, yoxsulluq, işsizlik, şikəstlik, yaxınını itirmə kimi hadisələr insanların yıxılmasına, həyata küsməsinə və nəticədə intiharlara asanca yol aça bilməkdədir. İçki və narkotik maddə istifadəsi də intiharları asanlaşdırıcı bir mühit meydana gətirməkdədir.***



# XARİCDƏ TƏHSİL



*Ali təhsilə ilk addımımı vətənim Gürcüstanda atdım. Uşaqlıqdan humanitar fənlərə, xüsusən də ədəbiyyata böyük marağım olub. Poeziyanı qızğın ehtirasla sevirəm. Gürcüstanda aldığım təhsil ədəbiyyat yanğımı söndürmədi. Mən hər mühazirədə Nizami, Füzuli, Nəsimi, Vurğun, Müşfiq adı eşitmək istəyirdim. O böyük klassiklərin adlarını fəxrlə çəkib, onları Azərbaycan mütəfəkkirləri kimi təqdim etmək niyyətində idim. Lakin təəssüflə qeyd etmək istəyirəm ki, gürcü xalqı da Nizamini, Füzulini fars kökənli şairlər kimi tanıyırdılar. Nizamidən bir fars şairi kimi söhbət açıldıqda onun azərbaycanlı olduğunu sübut etməyi çox arzulayırdım. Lakin bunu isbat etməyə sübutum yox idi. Sübut və fakt üçün ədəbiyyat fakültəsində oxumaq, düşünürdüm ki, şərt idi.*

Qarşıma məqsəd qoymuşdum – yaşımda neçə onluq olmasından asılı olmayaraq, Azərbaycanda filoloq təhsili alacağam. Heyranı olduğum ədəbiyyatla, klassiklərlə, onların yaradıcılığı ilə daha yaxından tanış olacağam.

Hamımıza məlumdur ki, vətənimiz Gürcüstanda artıq dil və ədəbiyyatımız lazımsız elm kimi sıxışdırılıb aradan çıxarılır. Bizim öz kökümüzü, soyumuzu, kimliyimizi, eləcə də dilimizi, onun leksik və qrammatik quruluşunu, ədəbi dil normalarımızı öyrənmək vəzifəmiz əlimizdən alınır. Bir millət kimi biz ədəbiyyatımızla, dilimizlə yanaşı öz milli kimliyimizi də unuduruq.

Belə... Mövzudan çox uzaqlaşdım. Lakin sadaladığım səbəblərdən dolayı ikinci dəfə Azərbaycanda ali təhsil almağı qərara aldım.

Hal-hazırda Bakı Dövlət Universitetinin filologiya fakültəsində təhsil alıram. Azərbaycanda olan təhsil sistemi məni bir tələbə kimi qane edir. Cəsarətlə söyləyə bilərəm ki, buradakı təhsilim məni daha çox kamilləşdirir. Filologiya fakültəsində oxumaq çətin, çətin olduğu qədər də məsuliyyətlidir. Hər keçdiyimiz yazıçı və şairin bütün yaradıcılığını, əsərlərini oxumaqla yanaşı təhlil etmək lazım gəlir.



*Elida Muxayeva*
Azərbaycan, Bakı Dövlət Universitetinin Filologiya fakültəsi

Universitetdə tez-tez Tələbə Elmi Birliyinin konfransları keçirilir. Elmi konfranslarla yanaşı Tələbə Elmi Birliyinin üzvləri tərəfindən poeziya gecələri də təşkil olunur. Bu birliyə qoşulmaq könüllüdür. Burada ən çox alqışladığım isə tələbələrin xüsusi günlərdə qocalar və uşaq evlərinə ziyarətidir. Ümumiyyətlə, istedadlı tələbələr universitetin mədəni lahiyələrində fəal iştirak edir, yazmaq bacarığı olan tələbələrin yaradıcılığı universitet jurnalında işıqlandırılır.

Azərbaycan və Gürcüstanın təhsil sistemini müqayisə etdikdə burada təhsil şərtlərinin daha ağır olduğunu sezməmək mümkün deyil. "Haqq əmək itirməz". Həqiqətən belədir. Oxuyan tələbə kəsrsiz imtahanları keçir. Semestr boyu səhlənkarlıq edən və dərslərinə qeyri-ciddi yanaşan tələbə isə təbii ki, kəsilir. Kəsildiyi fənləri təkrar oxumaq məcburiyyətində qalır. Kəsilən tələbələr yay məktəbində və yaxud alt qrupda (aşağı kurslarla) yenidən oxuyurlar. Bəzən bir tələbə bir neçə dəfə eyni fəndən kəsilərək təkrar-təkrar oxuyur. Azərbaycan təhsilində ən çox xoşuma gələn isə qaib limitidir. Əgər bir tələbənin semestr boyu beş qaibi olarsa, o tələbə imtahana buraxılmır. Öz hesabına və dövlət sifarişilə təhsil almasından asılı olmayaraq hər bir tələbə semestr uzunu göstərdiyi yüksək nəticəyə və imtahandakı müvəffəqiyyətinə görə təqaüd ala bilər. Bütün bunlarla yanaşı, universitetdə tələbələr üçün ödənişsiz xarici dil kursları da fəaliyyət göstərir.

Azərbaycan bizim vətənimiz, azərbaycan dili bizim doğma ana dilimiz olsa da, burada təhsil almağın mənə aşıladığı yüksək keyfiyyətlərlə yanaşı çətinlikləri də var. Bu çətinliklərin ən birincisi sənin qeyri-ölkə vətəndaşı olmağındır. Bildiyimiz kimi, hər bir tələbənin təqaüdə çox böyük ehtiyacı olur. Ancaq nə qədər çalışıb təqaüdə düşsən də təqaüd ala bilmirsən. Səbəb isə qeyri-vətəndaş olmağındır. Azərbaycan vətəndaşı olan tələbələrdən fərqli olaraq daha çox təhsil haqqı ödəyirsən. Universitetdə təhsil alan çoxsaylı koreyalı, hindli, özbək də xarici sayılır, mən də. Lakin ədəbiyyat eşqim məni əsla bu maddi və mənəvi çətinliklərdən döndərmir.

Ən böyük arzum isə dil-ədəbiyyatımızı tədris etmək, Borçalımızda ədəbiyyatımızı yaşatmaq, sevdirməkdir.

*Xatırladım ki, Azərbaycan Respublikasının prezidentinin 2015-ci il qərarına əsasən, hər bir Gürcüstan azərbaycanlısı daxili imtahanla Azərbaycanın istənilən təhsil ocağında təhsil almaq imkanına malikdir. Xüsusən də, məqsəd Borçalıya xidmət edəcək filoloqların yetişdirilməsidir. Yetər ki, gənclik bunu istəsin, öz milli soykökünə, dilinə, ədəbiyyatına sahiblənsin.*

## BİRİNCİ SİNİFLƏRİN QEYDİYYATI APRELİN 10-DAN BAŞLAYIB

Ümumtəhsil müəssisələrinə birinci siniflərin 2018-2019-cu tədris illəri üçün qeydiyyatı 10 aprel tarixindən başlayıb. Birinci siniflərin qeydiyyatı bu il də bir neçə mərhələdən ibarət olacaq:

**Qeydiyyat mərhələləri:**

**I mərhələ** - birinci mərhələdə qeydiyyat məktəbdə həyata keçiriləcək. Məktəbdə qeydiyyatdan keçəcək şagirdlər: Bacı və ya qardaşı həmin məktəbdə təhsil alanlar; Valideynləri məktəbin əməkdaşı olanlar (Yalnız valideyn, nənə və ya baba deyil); Ailədən bir və ya daha çox uşağı eyni zamanda birinci sinfə daxil olanlar;

**II mərhələ** - bu ümumi elektron qeydiyyatdır və burada məktəbə daxil olmaq yaşını qane edən şagirdlərin qeydiyyatı mümkün olacaq. Qeydiyyat təhsilin idarəsi üzrə məlumat sisteminin rəsmi səhifəsində - www.emis.ge-də həyata keçiriləcək. Burada I mərhələdə qeydiyyatdan keçə bilməyən şagirdlər qeydiyyat olunacaqlar. Qeydiyyatdan təhsilin idarəsi üzrə məlumat sisteminin veb-səhifəsində www.mes.gov.ge və yaxud www.emis.ge-də elektron olaraq keçə bilərsiniz.

**III mərhələ** - qeydiyyat II mərhələ başa çatdıqdan sonra qalan boş yerlərə, şagirdin qeydiyyat üçün vacib olan sənədlərinin təqdim olunması əsasında məktəbdə həyata keçiriləcək. Üçüncü mərhələdə qeydiyyat olmaq istəyənlər, məktəbə gedən zaman sənədlərini təqdim edəcəklər. Xatırladaq ki, "2018-2019-cu tədris ilində 16 və 17 sentyabr tarixində anadan olmuş uşaqlar da birinci sinfə daxil ola biləcəklər" – bu haqda məlumatı Gürcüstan Təhsil Nazirliyi artıq təsdiqləyib.

**Gürcüstan ümumtəhsil müəssisələrində şagirdin birinci sinfə qeydiyyat olunması üçün lazım olan sənədlər:**

•Şagirdin qanuni nümayəndəsinin ərizəsi. Ərizə qanuni nümayəndənin yaşayış yeri və telefon nömrəsi kimi məlumatlardan ibarət olmalıdır;

•Doğum haqqında şəhadətnamə və ya şəxsiyyət vəsiqəsinin notarius qaydasına əsasən təsdiqlənmiş surəti;

•İctimai hüquqi şəxsin – dövlət xidmətlərinin inkişaf agentliyi və ya ərazi xidmətləri tərəfindən verilmiş, şagirdə şəxsi nömrənin verilməsini təsdiqləyən sənəd;

•Məktəbin hüququ var ki, əlavə olaraq şagirdin fotoşəklini və başqa sənədlərin təqdim olunmasını tələb etsin.

## MƏKTƏB AKTİVLİKLƏRİNƏ QOŞULAN MÜƏLLİMLƏR 1 SAATA GÖRƏ MAKSİMUM 10 LARİ ALACAQLAR

Gürcüstanın Təhsil və Elm Nazirliyi Aleksandre Cecelavanın dövründə qüvvəyə minmiş "Sərbəst dərslər"i yeni proqramla əvəz edib.

Təhsil naziri Mixeil Çxenkeli "Məktəb aktivliklərinə dəstək proqramı"nı təsdiqləyib və artıq müsabiqə şərtləri haqqında sərəncam verib. Sərəncama əsasən, məktəb layihələrinin şərtləri, müddəti və maliyyələşdirilməsi qaydası müəyyən edilib.

Məlum olduğu kimi müsabiqədə iştirak edən ictimai məktəblər layihəni elə hazırlamalıdırlar ki, o, 7-ci, 8-ci və 9-cu sinif şagirdlərinin maraq və bacarıqlarına uyğun olsun.

Məktəb maliyyə əldə etmək üçün müvafiq tədris resurs mərkəzindən keçməklə (elektron sistem – eflow – vasitəsilə) məlumat doldurulmuş ərizə forması ilə nazirliyə müraciət etməlidir. Müraciətlərin qəbulu başlayıb.

Məktəb layihəni sonrakı istiqamətlər çərçivəsində planlaşdırmalıdır:

1. İdman
2. Mədəniyyət/incəsənət;
3. İntellektual-maarifləndirici.

Sərəncama əsasən, məktəb tərəfindən proqram üçün tələb olunan məbləğ 1000 laridən çox olmamalıdır.

Layihənin həyata keçirilməsinə xüsusən məktəb rəhbərliyini təmsil etməyən müəllimlər qoşulmalıdır. İstisna hal yalnız məktəbin uyğun kvalifikasiyalı müəlliminin olmaması halında mümkündür. İstisnaya proqram çərçivəsində yaradılmış komissiya qərar verir. Belə hallarda dəvət olunmuş mütəxəssisə maaş verilməsinə dair məhdudiyyətlər aid deyil və dəvət olunmuş şəxsə maaş verilməsi məktəblə razılaşaraq müəyyən edilir.

"Layihə çərçivəsində maaş fondunun olması halında müəllimin əmək haqqı üçün tələb olunan məbləğ bir akademik saata 10 laridən çox olmamalıdır. Qeyd olunan tənzimləmə müəllim tərəfindən dərs, mühazirə, müsahibə və oxşar tipli işlərə də aiddir. O, bəzi istiqamətlənmiş layihələrə aid deyil, məsələn, tədris/maarifləndirici ekskursiya, mədəni tədbirlərdə iştirak etmək və.s. Belə hallarda məktəb aktivliyin spesifikasını və təşkilini/həyata keçirilməsinin çətinliyini nəzərə alaraq özü qoşulan şəxsin və ya şəxslərin maliyyələşdirilməsi prinsipini və məbləğin miqdarını müəyyən edir", – Təhsil və Elm Nazirliyinin sərəncamında qeyd edilir.

# GÜRCÜSTANIN DİNİ MƏSƏLƏLƏR ÜZRƏ DÖVLƏT AGENTLİYİNİN NÜMAYƏNDƏ HEYƏTİ TÜRKİYƏYƏ RƏSMİ SƏFƏR EDİB



Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin heyəti Türkiyə Cümhuriyyətinə rəsmi səfər edib. Heyət tərkibində görüşdə Dini Məsələlər üzrə Dövlət Agentliyinin rəhbəri Zaza Vaşakmadze, Strateji Tədqiqat, Analiz və Regionlar üzrə Xidmət rəhbəri Nino Cavcavadze və həmin xidmətin dini təşkilatlarla əlaqələr üzrə koordinatoru Serqo Parulava iştirak edib.

Səfər çərçivəsində agentliyin rəhbəri Zaza Vaşakmadze və Türkiyə Cümhuriyyətinin Dini Məsələlər üzrə Rəhbərliyinin prezidenti proffessor, doktor Ali Erbaşla görüşü baş tutub. Gürcüstan heyətinin rəhbəri səlahiyyətli vəzifəyə təyin olunması münasibətilə Ali Erbaşı təbrik edib, Gürcüstanda dini vəziyyət və statistika, həmçinin dini agentliyin strukturu, dinlərarası iclasın fəaliyyəti, maddi yardımlar və məscidlərin məsələsi, dövlət tərəfindən müsəlman icmasına dəstək üçün atılan addımlarla onları tanış edib.

Cavab olaraq Dini Məsələlər üzrə Rəhbərliyin prezidenti Gürcüstan hökumətinə maddi və iqtisadi məsələlərdə müsəlman icmasına göstərdiyi köməyə və müsəlmanların hüququnu müdafiə etdiyinə görə xüsusi təşəkkürünü bildirib. O, qeyd edib ki, müsəlman icmalarında bir çox ölkələrdə vəziyyət bu qədər müsbət deyil. Ali Erbaş Gürcüstan heyətinə əməkdaşlıq istəyini bildirib və vurğulayıb ki, Türkiyə və Gürcüstan arasında mövcud olan qardaşlıq münasibətləri qorunub saxlanılmalıdır. Görüşdə terrorizmə qarşı dini təhsilin vacibliyi mövzusuna xüsusi diqqət yetirilib.

Səfər çərçivəsində Türkiyə Cümhuriyyətinin Dini Məsələlər üzrə İdarəçiliyinin Xarici İşlər üzrə Müdirliyinin sədri Erdal Atalayla da görüş keçirilib. Görüşdə Türkiyə tərəfi dini agentliyin strukturu, fəaliyyət sistemi və eləcə də dini təhsil proqramlarına dair müzakirələr ediblər. Tərəflər regionda terrorizm və islamafobiya ilə mübarizə problemləri haqqında da söhbət aparıblar.

Səfər çərçivəsində agentliyin rəhbəri Zaza Vaşakmadze və Türkiyənin mədəniyyət və turizm naziri Numan Kurtulmuşla da görüş keçirilib. Nazir öz çıxışında Gürcüstanla mədəni-dini əlaqələrin daha da dərinləşdirilməsi istəyini vurğulayıb. Z. Vaşakmadze Gürcüstan dövlətinin müsəlman dini-mədəni tikililərinin qorunması və bərpası məsələlərinə qoşulmasını qeyd edib. O, bildirib ki, son illər ərzində bir çox məscidlərdə bərpa işləri aparılıb, bir hissəsinə isə mədəni miras abidəsi statusu verilib və abidələr dövlət tərəfindən qorunur.

Türkiyə Cümhuriyyətinin mədəniyyət naziri Gürcüstanda məscidlərin bərpa işlərinin aparılmasına TİKA-nın dəstək göstərməsi üçün hazır olduqlarını bildirib. Həmçinin nazir Gürcüstan və Türkiyədə hər iki ölkənin mədəni həftəliklərinin keçirilməsi təklifini irəli sürüb.

Səfər çərçivəsində agentliyin heyəti Türkiyə Cümhuriyyətinin Məclisində Ədalət Komitəsinin rəhbəri Ahmet İyimaya və Gürcüstan Dostluq Qrupunun rəhbər müavini Hüseyin Şahinlə də görüş keçirib.

Türkiyə tərəfi Gürcüstan və Türkiyə arasında olan dostluq və strateji tərəfdaşlıq, Türkiyə tərəfindən Gürcüstanın Avropa və Avroatlantikaya doğru irəliləməsində dəstəyin olduğunu xüsusi qeyd edib. Bu əlaqələrin qorunmasında mədəniyyətin xüsusi rolu olduğu da diqqətə yetirilib.

Görüşdə Gürcüstanın Türkiyə Cümhuriyyətindəki səfiri İrakli Koplatadze də iştirak edib. Türkiyə nümayəndələri beynəlxalq terrorizmə qarşı mübarizə və bu istiqamətdə birgə çalışmaların vacibliyinə xüsusi diqqət yetiriblər.

Görüşün sonunda gürcü heyəti Türkiyə Böyük Millət Məclisinin (TBMM) sessiyasında iştirak edib. Sessiyada gürcü tərəfini TBMM-nin üzvləri xüsusi qarşılayıblar. Həmçinin Türkiyənin idman və gənclər naziri və TBMM-nin deputatları ilə də qeyri-rəsmi görüşlər keçirilib.

Gürcüstan heyəti İstanbul Mərmərə Universitetinin teologiya fakultəsi və İstanbul Bəyoğlu dini oğlanlar məktəb-liseyini də ziyarət edib. Onlar teologiya fakultəsinin fəaliyyəti ilə tanış olublar. Heyət üzvləri eyni zamanda Mərmərə Universitetində təhsil alan gürcü tələbələrlə də görüşüb.

Bəyoğlu oğlanlar üçün məktəb-liseyə səfər zamanı isə Türkiyənin təhsil sistemi və oxşar növ liseylərin ictimai məktəblərlə müqayisədə fərqi olan xüsusiyyətləri haqqında məlumat alıblar.

Səfərin sonunda Dini Məsələlər üzrə Dövlət Agentliyinin heyəti İstanbul müftisi Hasan Kamil Yılmazla görüşüb. Görüş zamanı müfti Gürcüstanda dini vəziyyətlə tanış olub və dini təhsilin radikalizmdən kənar əhəmiyyətindən söhbət açıb. Tərəflər gənclərin proseslərə qoşulması və mədəni təcrübələrin bölüşülməsi haqqında danışıblar.

Hazırladı: Aynurə Əliyeva

# HÖKUMƏT YENİ VERGİ TƏŞƏBBÜSLƏRİNİN HƏYATA KEÇİRİLMƏSİNİ PLANLAŞDIRIR

Gürcüstan hökuməti yeni vergi təşəbbüslərinin həyata keçirilməsini planlaşdırır. Baş nazir Giorgi Kvirikaşvili hökumət iclasında bildirib ki, məsələ ölkədə iqtisadi aktivliyi həvəsləndirəcək üç yeni təşəbbüsə aiddir: "Xatırladım ki, Maliyyə Nazirliyi bir müddət əvvəl kiçik sahibkarlar üçün vergi yükünü beş dəfə azaldan təşəbbüs təqdim etdi. Bu, vergi liberalizasiyası baxımından əvəzsiz atılmış addım idi. İndi isə yeni təşəbbüsləri təqdim etmək istəyirəm. Bunlar yenə də bu istiqamətdə, xüsusən kiçik sahibkarlara əlavə oksigen vermiş kimi olacaq. Üç yeni təşəbbüs həqiqətən də indiyə kimi təşəbbüsü irəli sürülən reformalar kimi geniş miqyaslı və yenilik gətirəndir.

Birinci təşəbbüslə sahibkar əlavə bürokratik prosedurlardan azad olunur və bu gün sahibkar tərəfindən təqdim olunan beş vergi sənədinin əvəzinə, yeganə birləşdirilmiş vergi sənədi olacaq. Sahibkarlar sənədlərə bu gün sərf etdikləri qədər resurs sərf etməyəcəklər. İkinci – bizim prioritetimizdir ki, Gürcüstanda əhalinin hər təbəqəsinin, xüsusən də az gəlirlilərin maksimum dərəcədə qoşulacağı iqtisadi artım olsun. Məsələn, həmişə dağlıq regionlarda mehmanxanalar və ya yeni ticarət mərkəzləri açılanda, orada yerli məhsul az olur və çox hallarda məhsulu Tbilisidən və ya digər regional mərkəzlərdən aparırlar. Ona görə də, alıcıları yerli əhali tərəfindən istehsal edilmiş qida məhsullarını almağa həvəsləndirmək üçün maksimum dərəcədə məhsulun yerli sahibkarlardan, kənddə yaşayan adamlardan və kiçik fermerlərdən alınmasını vergi və eləcə də prosedur baxımından asanlaşdırırıq.

Bilirsiniz ki, Avropada dağlıq regionlarda çox tez-tez yerli məhsullarla qarşılaşırıq. Cəlb edici də məhz budur. İnsanlar dağa dincəlməyə gedirlər və istəyirlər ki, oradakı məhsulun dadına baxsınlar. Təəssüf ki, bu günə qədər qüvvədə olan vergi mühiti buna imkan vermirdi və mən, maliyyə nazirinə təşəkkür etmək istəyirəm ki, belə vacib təşəbbüs təqdim etdi".

Üçüncü təşəbbüs isə qeyri-rezident şəxslərə qarşı Gürcüstanda şirkətlərin onlayn qeydiyyatını nəzərdə tutur.

"Bu təşəbbüs imkan yaradır ki, xarici istehsalçılar onlayn rejimdə bizim ölkədə şirkət qeydiyyat etsinlər, bank sistemində hesablar açsınlar, həmçinin onlayn rejimdə özləri orada olmadan şirkəti fiziki olaraq idarə edə bilsinlər. Əminəm ki, bu təşəbbüs ölkəmiz üçün yeni gəlir mənbəyi olacaq və imkan yaradacaq ki, ölkəmizi yalnız regionumuzda deyil, onun hüdudlarından kənar beynəlxalq maddi mərkəzlərdə daha çox təqdim edək", - deyə baş nazir bildirib.

# ƏDLİYYƏ NAZİRLİYİ: BƏZİ VƏTƏNDAŞLAR SƏNƏDLƏRİNDƏ DOĞULDUĞU YERİN ADINI DÜZƏLDƏ BİLƏCƏKLƏR

Ədliyyə Nazirliyinin məlumatına görə, 4 aprel tarixində hökumət yeni qanunlayihəni təsdiq edib. Qanunlayihəyə əsasən, vətəndaşlar doğulduğu yerin adı, ünvanı müxtəlif olduğu halda və buna görə problemlərlə qarşılaşdıqlarına görə rəsmi sənədlərində düzəlişlər edə biləcəklər.

"Mülki aktlar haqqında" qanuna dəyişiklik daxil olmalıdır. Qanunlayihəni hökumət iclasında ədliyyə naziri Tea Tsulukiani təqdim edib.

Ədliyyə Nazirliyi qanunlayihəyə əsasən, rəsmi sənədlərdə düzəlişlərin necə həyata keçiriləcəyini izah edib:

"1976-94-cü illərdə doğum qeydiyyatı zamanı uşağın həqiqi doğum yerini və ya valideynlərin doğulduqları yeri qeydiyyat etdirmək mümkün idi. Nəticədə elə hallar olub ki, qanunvericiliyə riayət etməklə valideynlərin ünvanına əsasən qeydiyyat olub, amma ilk dəfə verilmiş doğum şəhadətnaməsində şəxsin həqiqi doğulduğu yer qeyd olunub. Ancaq müxtəlif vaxtlarda verilmiş müxtəlif sənədlərdə iki fərqli yer görsənir. Bu, vətəndaş üçün narahatçılıq yaradır və probleme çevrilir. Qanunvericilikdə dəyişikliklərin edilməsinə də məhz bu səbəb olub.




Ədliyyə Nazirliyi tərəfindən hazırlanmış dəyişikliklər, belə şəxslərə göstəricilərini düzəltmək üçün imkan yaradır və istədikləri halda bütün sənədlərdə doğulduğu yer kimi doğum şəhadətnaməsində yazılmış, həqiqi olan bələdiyyənin ünvanını yaza bilərlər.

Rəsmi sənədlərdə dəyişikliklər daxil etmək şəxsin öz tələbinə əsasən olur. Həqiqi doğulduğu yerin təsdiqlənməsi tibbi müəssisə tərəfindən verilmiş arayışa əsasən də mümkün olacaq.

Bu gün qüvvədə olan qanunvericiliyə əsasən, doğulduğu yerin düzəldiməsi övladlığa götürülmə, atalığın təsdiqlənməsi, ad və ya soyadın qeydiyyatı, vətəndaşlığın dayandırılması və ya itirilməsi əsasında mümkündür. Doğulduğu yerin adının düzəldilməsi yalnız mülki aktın qeydiyyatı zamanı səhvə yol verildiyi təsdiqləndiyi halda mümkün olur.

Qanunvericilikdə dəyişikliklərə əsasən, sənəd verilən zaman qüvvədə olan qanunvericiliyi qorumaqla, doğulduğu yer olaraq öz həqiqi doğulduğu yer deyil, valideynin qeydiyyat yeri göstərilən şəxslər sənədlərdə həqiqi doğulduğu yerin yazılmasını tələb edə biləcəklər.

# BOŞANMANIN QEYDİYYAT MÜDDƏTİ TEZLƏŞDİRİLƏCƏK

Ədliyyə Nazirliyi hökumətin iclasında dəyişikliklər layihəsi təqdim edib. Layihəyə əsasən, boşanma haqqında məhkəmənin qanuni qüvvəyə minmiş qərarının qeydiyyatı üçün gözləmə müddəti olmayacaq.

Məlumata əsasən, təcrübədə elə hallar var ki, vətəndaşlar boşanma haqqında məhkəmə qərarından uzun müddət keçdiyinə görə boşanmanı qeydiyyat etdirə bilmirlər. Dəyişikliklər layihəsi bu səhvlərin düzəldilməsini nəzərdə tutur.

Nazirlik bildirir ki, təqdim olunmuş qanunlayihənin məqsədi boşanma haqqında məhkəmə qərarının icrasına dəstək olmaqdır. Bu isə mülki reyesterdə məlumatın dolğun hesaba alınmasını təmin edəcək. Boşanma haqqında məhkəmə qərarını uzun müddətdən, bəzən 10-15 ildən sonra qeydiyyat etdirən vətəndaşlar isə maneələrlə qarşılaşmayacaqlar.

"2011-ci ilin sonuna qədər boşanmanın qeydiyyatı məhkəmə qaydasına əsasən, 3 il, 2012-ci ildən isə 10 il ərzində mümkün idi. Təcrübədə elə hallar mövcuddur ki, vətəndaşlar boşanmanı məhkəmə qərarından uzun müddət keçdiyinə görə qeydiyyat etdirə bilmirlər. Müvafiq olaraq onlar absurd vəziyyətə düşürlər – keçmiş həyat yoldaşlarını boşanma üçün prosedurları yenidən keçməyin vacibliyinə inandırmağa çalışırlar. Ədliyyə Nazirliyinin təklif etdiyi dəyişikliklər boşanmanın qeydiyyatını daha da tezləşdirir və vətəndaşları məhkəməyə yenidən müraciət etməkdən azad edir", – layihədə bildirilir.

# RİZA MƏŞƏDİ OĞLU İSGƏNDƏROV

Qarayazının məğrur, ağır kişilərindən biri – ictimaiyyətçi, Şərəf ordeni kavaleri, Qardabani rayonunun fəxri vətəndaşı, ali kateqoriyalı müəllim, tarixçi Riza Məşədi oğlu İsgəndərov martın 12-si 90 yaşında haqq dünyasına qovuşdu. "Yeni YOL" qəzeti adından mərhumun ailəsinə, qohumlarına baş sağlığı verir, Allahdan mərhumun ruhuna rəhmət diləyirik.

Aşağıda martın 14-ü Riza müəllimin dəfn günü onun dostlarının, tanışlarının söylədiyi çıxışları diqqətinizə çatdırırıq.

**Çıxışlar:**

Bu gün Qarayazı eli özünün böyük oğullarından birini, Riza Məşədi oğlu İsgəndərovu son mənzilə yola salır. Doxsan illik ömür yolunun yetmiş ilini gənc nəslin təlim-tərbiyəsinə həsr etmiş bu insanın, bu şəxsiyyətin ömür yolunun bütün anları ibrətamiz və safdır.

Riza müəllimin bugünkü matəm mərasimində son illərdə Qarayazıda görünməmiş dərəcədə insanın iştirak etməsi bizim hamımızı düşünməyə vadar edir. Bu ehtiramın mayasını nə təşkil edir? Bəlkə Riza müəllim böyük dövlət vəzifələrində çalışmışdır? Yox, o, bütün mənalı ömrünü məktəbdə, uşaqların əhatəsində keçirmiş, dərs hissə müdiri, direktor işləmişdir. Ayrı-ayrı zamanlarda ona rayonda yüksək vəzifələr təklif etsələr də, o, öz əqidəsinə sadiq qalmış, doğma məktəbdən ayrılmamışdı. Bəlkə Riza müəllim çox imkanlı adam olmuşdur? Xeyr, Riza müəllim ayın bu başından o başına kimi minimum yaşayış səviyyəsini qorumağa hesablanmış müəllim maaşını gözləmişdi. Buna baxmayaraq o, elin xeyrində-şərində başda olmuş, ağıllı məsləhət və nəsihətləri ilə elin karına gəlmiş, elin oğlu adlandırılan adamlar arasında öncüllərdən olmuşdur. Böyük Aşıq Ələsgərin aşağıdakı bəndi sanki onun üçün yazılmışdır:

***Böyük hörmət ilə, təmiz ad ilə***
***Mən dolaşdım bu Qafqazın elini.***
***Pirə ata dedim, cavana qardaş,***
***Ana-bacı bildim qızı-gəlini.***

Dünyanın ən qədim və müdrik xalqlarından birisi olan çinlilərin qiymətli bir deyimi var: "Əgər gələn ilini düşünürsənsə taxıl əkbecər, əgər beş il sonranı düşünürsənsə ağac ək, əgər əlli il sonranı düşünürsənsə yaxşı evlad tərbiyə et", demişlər.

Tərbiyə etdiyi uşaqları öz evladlarından ayırmayan Riza müəllim məclisə daxil olanda hamının ayağa duraraq onu məclisin başına dəvət etməsinin sirrini burada axtarmaq lazımdır.

Riza müəllim orta məktəb səviyyəsində öz ixtisası olan tarixdən başqa coğrafiyanı, fizikanı, riyaziyyatı, kimyanı – bir sözlə bütün fənləri əla bilirdi. Hətta ixtisasçılar belə ağızlarını açıb onun yanında danışmağa ehtiyatlanırdılar. Qiymətli bir deyim var: Alim öldü, elm öldü, elm öldü, aləm öldü. Bu fikrin Riza müəllimə birbaşa aidiyyatı var.

Ölüm həmişə faciədir. Lakin ömrü boyu bir qəlb isitməyən, geriyə baxdıqda gözə görünəcək heç nə qoymayan, nəinki eldə, heç evində də sevilməyənlər üçün ölüm on qat faciədir. Ancaq Riza müəllim bir kamil insan ömrü yaşadı, özünün ağsaqqal məramını yaşadan övladlar qoydu.

Ölməz Səməd Vurğunun aşağıdakı bəndi ölümündən sonra ölməzlik qazananlaradır.

***Ölüm sevinməsin qoy! Ömrünü vermir bada***
***El qədrini canından daha əziz bilənlər,***
***Şirin bir xatirətək qalacaqdır dünyada***
***Sevərək yaşayanlar, sevilərək ölənlər...***

**Hidayət Yusubov**
*Qardabani şəhər 3 nömrəli ictimai məktəbin müəllimi*

* * *

**Ağır itki**

Bu gün Qarayazı elində hava da tutqundu. Mərasim iştirakçıları, mən bunu böyük insan və şəxsiyyət olan Riza müəllimin son mənzilə yola düşməsi ilə əlaqələndirirəm. Riza müəllim ömrünü-gününü xalqının, millətinin ziyası, nuru və tərəqqisi üçün şam kimi yandıran bir şəxsiyyət olub. Elə ona görə də bu gün, onu son mənzilə yola salmaq üçün Qarayazı eli, Borçalı çökəyi bu mərasimdə iştirak edir. Riza müəllim hərtərəfli dünya görüşünə malik olan intellektual səviyyəli insan idi.

Riza müəllimə hansı bir sahədən söhbət açdıqda o, sahənin incəliklərini o qədər səlist, rəvan və xırdalayaraq izah edərdi ki, qarşısındakına hər şey aydın olardı. Bir sözlə, o, canlı ensiklopediya idi. Qədim və zəngin irsimiz olan aşıq sənətindən elə ustalıqla bəhs edərdi ki, sən sanki ustad bir aşıq qarşısında bir dastana qulaq asardın.

O, tarixdən danışanda qarşısındakı tarixçi olmadığı üçün heyfslənirdi. Ədəbiyyatın istər klassik növündən, istər müasir sahəsindən Riza müəllimi dinlədikdə ədəbiyyatçı olduğum üçün fəxr edərdim.

Ölüm həyatın inkarı yox, təsdiqidir. Onun tamlığı və bütövlüyünün yekunudur. Bugünkü gün kimi bu şəxsiyyətin izdihamlı yola düşməsidir.

Mən Riza müəllimi çinar ağacına bənzədirəm. Çinarın növləri çoxdur, mən Riza müəllimi Xan çinarına bənzədirəm – kökü torpağa bağlı, başı buluda dəyən. Bu bənzətmə mənə Rəsul Rzanın "Çinar" şeirinin bu misralarını xatırladır:

***Çinar, beş yüz ildən bir az,***
***bircə yaz,***
***az***
***yaşadı.***
***Amma yaşadı ha!***
***...Fırtınada, qasırğada***
***əyilmədi.***
***Acizlik, qorxu nədir -***
***bilmədi.***
***Yaşadı çinar kimi;***
***budaqları çətir-çətir,***
***kölgəsi meydan-meydan.***
***Az da, çox da yaşasaydı,***
***belə yaşayacaqdı.***
***Kökü torpağa bağlı,***
***vüqarlı çinar kimi;***
***müdrik babalar kimi.***

Maraqlı insan olan Riza müəllim, mənim həm əmim, həm də yaxın dostum idi. Ölüm var ki, həyat qədər dəyərli, həyat var ki, ölümdən də zəhərli.

**Növrəstə Məhərrəmqızı**
*Qardabani,*
*Kalinin içtimai məktəbinin Azərbaycan dili və ədəbiyyatı müəllimi*

* * *

Bu gün biz ən ülvi, ən nəcib yaxın insanımızı – Riza müəllimi son mənzilə, vətən torpağına tapşırırıq. Bu, Riza müəllimin ailə üzvləri, qohu-qardaşının itkisi deyil, bütövlüklə Qarayazı elinin itkisidir. Gözəl insan Riza müəllim müəllimlik peşəsini ömrünün sonunadək davam etdirdi. Onun dərs dediyi, eləcə də ondan təlim-tərbiyə almış məzunlar həm ölkəmizdə, həm də ölkəmizdən kənarda yüksək vəzifələrdə çalışırlar.

Riza müəllim direktor işləyərkən Kalinində böyük əməyi olmuşdur. Rayon rəhbərliyi Riza müəllimin zəhmətini yüksək qiymətləndirmişdir, dəfələrlə kənd məclisinin deputatı olmuş, dövlətin yüksək mükafatı – Şərəf nişanı ordeni ilə mükafatlandırılmışdır.

Riza müəllim gözəl ailə başçısı olmaqla bərabər, həm də ləyaqətli el ağsaqqalı



kimi insanlığın ləyaqətini yüksək tutan bir insandır. Neyləmək olar... Görünür onun da taleyi belə yazılıbmış.

Riza müəllimin həyat məktəbi gələcək nəsil üçün örnək oldu. Riza müəllimin belə şərəfli el hörməti ilə torpağa tapşırılması hər kəsə qismət olmur. Riza müəllim Qarayazı elinin ziyalılarının, el-obasının qəlbində daim yaşayacaq. Allah rəhmət eləsin.

**Almaz Sadıqov**
*El ağsaqqalı*

* * *

İctimai xadim, xalqımızın sevimli oğlu İsgəndərov Riza Məşədi oğlu bu gün torpağa tapşırılır. Riza müəllim əsl savadlı, ləyaqətli insan ömrü yaşadı. Qarayazı xalqı özününün ən güclü, ən savadlı oğlunu dəfn edir. Allah rəhmət etsin.

**Məhəmməd Muxtaroğlu**
*Qardabani rayonu Kosalı ictimai məktəbinin riyaziyyat müəllimi*

* * *

O, müəllimlik simvolu idi... Riza müəllimi 60-cı illərdən tanıyıram. Bir çox elmlərin bilicisi idi. Olduqca ciddi, savadlı, söz sahibi olan müəllimlərdən biri idi. Onun xoşbəxtliyi insanlara əl tutmağında idi.

Həyatda savadlı və tərbiyəli övladları ilə həmişə fəxr edərdi...

**Qiyas Kazımov**
*Qardabani rayonu Kosalı orta məktəbinin sabiq direktoru*

# GYMD-NİN OFİSİNDƏ 9 APREL YAD EDİLDİ

Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının Qardabanidəki ofisində 9 aprellə bağlı tədbir keçirilib. Tədbiri GYMD-nin sədri Musa Hacıyev açıq elan edib.

"Bu gün burada bir araya yığılmağımızın əsas səbəbi 29- il bundan öncə, yəni 1989-cu ilin aprel ayında baş vermiş hadisədir. Bu tarixdə Tiflis şəhərinin indiki Rustaveli prospektində keçirilən dinc aksiyanın sovet ordusu tərəfindən qəddarcasına dağıdılması zamanı 21 nəfər həlak olmuşdur. Elə bu hadisədən sonra da Gürcüstan dövləti öz müstəqilliyini bərpa etmişdir. Bu gün kədərli olduğu qədər də xoş gündür. Bizlər də dövlətimizin istər kədərli, istərsə də xoş günlərində bir araya gəlirik. Çünki bu bizim vətəndaşlıq borcumuzdur. Qafqaz xalqları hər zaman iç-içə yaşamış, birlikdə bir çox kədərli və sevincli günləri bölüşmüşlər. Digər yandan baxdıqda elə Azərbaycanla Gürcüstanın da eyni taleyi paylaşdığını görürük. Hər ikisinin də 20 faiz torpağı işğal altındadır, hər ikisi də müəyyən sayda insan itkisi verərək müstəqilliyini bərpa edib. Bu vəziyyətdə bu iki xalqın da nümayəndələri bir olmalı və bərabər yaşamağın fəlsəfəsini daim gücləndirməlidirlər", - deyə Musa Hacıyev bildirib.

9 aprel günü baş verənlərlə bağlı film göstərildikdən sonra tədbir davam etdirilib.

Tədbirdə çıxış edən Bütün Gürcüstan Müsəlmanları İdarəsinin (BGMİ) müftisi Yasin Əliyev qeyd edib ki, bu günü həm sevinc, həm də kədər günü kimi qeyd etmək olar və bu kimi hadisələr gələcək nəsillərə çatdırılmalıdır.

Sonra orta məktəb müəllimi Zabit Hüseynov, Muradxan Eminov, II Kosalı İslam Mədrəsəsinin müdiri Natiq Əliyev, BGMİ-nin Qardabani bölgəsi üzrə müftisi Rizvan Qəhrəmanov çıxış ediblər.

## VƏTƏNDAŞLAR PARLAMENTDƏN MƏLUMAT ALA BİLƏCƏKLƏR

Yeni sayt vətəndaşlara Parlamentdən məlumat almaqda yardımçı olacaq. Bununla bağlı Marneuli Mülki Məşğulluq Mərkəzində məlumat xarakterli görüş keçirilib. Görüşdə Gürcüstan Parlamentinin üzvü Ququli Mağradze və Məlumat Azadlığının İnkişafı İnstitutunun icraçı direktoru Giorgi Kldiaşvili Gürcüstan Parlamentinin şəffaflığı haqqında danışıblar.

Görüşdə www.chemiparlamenti.ge saytı müzakirə olunub. Qeyd olunan saytın vasitəsilə hər bir şəxs lazımi məlumatı əldə edə biləcək. Sayt istifadəçiyə imkan yaradır ki, Parlamentin qərarları, təşəbbüsləri, planlaşdırılan tədbirləri və iclasları ilə tanış olsun. Həmçinin vətəndaşlar sayt vasitəsilə Parlamentdə onun nümayəndəsinin kim olduğunu öyrənə, Parlament üzvləri haqqında məlumat ala, qanunvericilik işləri, gəlirlər və bioqrafik göstəricilərlə tanış ola bilərlər. Eyni zamanda qanunlayihələri və onların müzakirəsi mərhələlərini asan formatda izləyə bilərlər. SMS xidmət yükləyə və onun vasitəsilə maraq sahəsinə uyğun olaraq aktual məsələlərlə bağlı Parlamentdə müzakirə haqqında məlumat ala bilərlər. Parlamentə istədiyi dəyişikliklər haqqında ideasını və fikirlərini göndərə, həmçinin Parlamentlə bağlı olan təşkilatın aktivlikləri haqqında məlumatla tanış ola bilərlər.

## MARNEULİNİN SAİMERLO KƏNDİNDƏ YENİ UŞAQ BAĞÇASI TİKİLƏCƏK




Marneulinin Saimerlo kəndində müasir standartlara cavab verən yeni uşaq bağçası tikiləcək. İnşa ediləcək ikimərtəbəli uşaq bağçası dörd qrup üçün nəzərdə tutulub. Binada qrup otaqlarından əlavə yeməkxana və digər yardımçı otaqlar yerləşdiriləcək. İkinci mərtəbədə qruplar üçün otaqlar, inzibati otaqlar, idman və tədbirlər üçün nəzərdə tutulmuş zal olacaq. Uşaq bağçasında fiziki məhdudiyyətli şəxslər üçün də şərait yaradılacaq.

Xatırladaq ki, bağça binasının tikinti işlərinin aparılacağı ərazidə İkinci Dünya Müharibəsi veteranları və Avqust müharibəsində qəhrəmancasına həlak olmuş Zaza Bocoidzenin büstü yerləşir. Layihəyə əsasən, onun yerinin dəyişdirilməsi, bağçanın kənar perimetrinə köçrülməsi nəzərdə tutulur.

Bağçanın inşası üçün yerli büdcədən 686 000 lari ayrılacaq. Hazırda tikinti işləri üzrə tender sona çatıb. Bundan sonra terderi udan şirkət ilə müqavilə bağlanacaq.

## QARDABANİ VƏ BOLNİSİ DƏ DAXİL OLMAQLA 19 BƏLƏDİYYƏDƏ QAZLAŞDIRILMA İŞLƏRİ HƏYATA KEÇİRİLƏCƏK

Baş nazir Giorgi Kvirikaşvili hökumət iclasında ölkənin müxtəlif rayonlarının kəndlərində yaşayan 17 517 ailənin təbii qazla təmin olunacağını bildirib. Onun sözlərinə görə, qazlaşdırılma işlərinə dövlət büdcəsindən 39,5 milyon lari ayrılacaq.

"Qazlaşdırılma ilə bağlı genişmiqyaslı layihələr 19 bələdiyyənin 80 kəndi və bir şəhərində həyata keçiriləcək", – deyə baş nazir qeyd edib.




G. Kvirikaşvili bildirib ki, 2013-2017-ci illərdə 80 min ailə təbii qazla təmin olunub.

Qeyd edək ki, Gürcüstanın bölgə və kəndlərinin qazlaşdırılması ilə "SOCAR Georgia Gas" şirkəti məşğul olur.

## MARNEULİDƏ TƏCİLİ TİBBİ YARDIM MƏRKƏZİ TİKİLƏCƏK

Marneulidə Təcili Tibbi Yardım Mərkəzinin tikinti işləri fəal olaraq davam edir. Bələdiyyənin indiyə kimi xüsusi Təcili Tibbi Yardım Mərkəzi binası olmayıb. Bundan dolayı tibbi xidmətin yaxşılaşdırılması məqsədi ilə Marneuli şəhərində yeni tibbi yardım mərkəzi tikiləcək. Layihəyə əsasən, mərkəzin binası bir mərtəbəli olacaq və əhalinin yüksək tibbi xidmət almaq imkanı olacaq. Tikinti cari ildə başa çatacaq. Mərkəzin tikintisi üçün 152 000 lari ayrılıb. Məbləğin 95%-i dövlət büdcəsindən, 5%-i isə yerli büdcədən sərf olunacaq.

## QARDABANİ BƏLƏDİYYƏSİNİN DÖRD KƏNDİNDƏ YOL İNFRASTRUKTURU QURULACAQ

Cari ildə Qardabani bələdiyyəsinin dörd kəndində – Candar, Vaxtanqisi, Kosalı və Nəzərlidə yol infrastrukturunun qurulması planlaşdırılır. Layihəyə əsasən, yolun 10,43 km-lik hissəsinə asfalt qatı çəkiləcək. İşlər yerli büdcədən maliyyələşdirilir və təxmini dəyəri 1 597 729 14 larini təşkil edir.

İlkin mərhələdə tikinti işlərinin aparılması üçün dövlət tenderi elan edilib. Təkliflərin qəbulu 11 aprel tarixində başa çatıb.

## QARDABANİ MERİYASI İKİ ZİBİL DAŞIYAN MAŞIN ALIB

Qardabani bələdiyyəsinə müasir standartlarla təchiz olunmuş 2 yeni zibil daşıyan maşın xidmət göstərəcək. Zibil daşıyan maşınları meriya yerli büdcədən 500 000 lariyə əldə edib.

Tender sənədlərinə uyğun olaraq, zibil daşıyan maşını 18-19 kb.m. tutumludur və bütün müasir texniki tələblərə cavab verir.

Bələdiyyə tərəfindən elan olunmuş tenderdə "Tegeta Truck and Bus" şirkəti qalib gəlib. Şirkət avtomobilləri müqavilə bağlanandan 90 gün müddətində bələdiyyəyə təhvil verməlidir.

İndiki mərhələdə Qardabani bələdiyyəsinə cəmi iki zibil daşıyan maşın xidmət göstərir. Yeni maşınların əlavə olunmasından sonra tullantıların daşınması hər gün mümkün olacaq.

## G. KVİRİKAŞVİLİ: "BOLNİSİDƏ ƏDLİYYƏ EVİNİN İNŞASI PLANLAŞDIRILIR"



Baş nazir Giorgi Kvirikaşvili "Gürcü Arzusu" Partiyasının Rustavi təşkilatının konfransında Kvemo Kartli regionunda həyata keçiriləcək və planlaşdırılan layihələr haqqında danışıb.

Baş nazirin bildirdiyinə görə, Kvemo Kartli regionunda ümumi dəyəri 151 300 000 larini təşkil edən, ümumilikdə təqribən 1700 infrastruktur layihəsi həyata keçirilib.

Kvirikaşvili bildirib ki, bölgədə turizmin inkişafı üçün bütün şərtlər mövcuddur və bu istiqamətdə addımlar artıq atılıb: "Bölgədə tarix və mədəni abidələrin təmir-bərpa işləri də aparılır. Bununla yanaşı, 2018-ci ildə Bolnisidə Ədliyyə Evinin inşası planlaşdırılır".

Nazir qeyd edib ki, hakim partiyanın məqsədi yerlərdə, xüsusən də regionlarda partiya təşkilatlarını möhkəmləndirməkdir: ""Gürcü Arzusu"nun qapıları ölkə quruculuğunda iştirak etmək istəyən hər bir kəsə açıqdır".

## KVEMO KARTLİDƏ MEDİA TURLARA BAŞLANILDI

Kvemo Kartli qubernatoru Qriqol Nemsadzenin təşəbbüsü ilə 13 aprel tarixində ictimaiyyətin daha yüksək səviyyədə məlumatlandırılmasına dəstək olmaq məqsədi ilə, bölgənin turistik potensialının tanıdılması və müvafiq infrastrukturun qaydaya salınması istiqamətində artıq həyata keçirilmiş və planlaşdırılmış layihələr haqqında regionun bələdiyyələrinə media tur təşkil olunub.

Tədbir çərçivəsində mərkəzi və yerli televiziyaların, çap mediyasının və internet nəşriyyatların jurnalistləri yerində tarixi-mədəni abidələri və turistik obyektləri ziyarət ediblər.

Media turun iştirakçıları region və bələdiyyələrin rəhbər şəxsləri ilə birgə Dmanisi və Bolnisinin görməli yerlərini nəzərdən keçiriblər. Jurnalistlər ilk avropalıların vətənində tarixi muzey-tikililərin və Dmanisi şəhərciyinin tarixi ilə tanış olublar. Eyni zamanda Bolnisi bələdiyyəsində tarixi abidələrlə - Bolnisi Sioni kilsəsi və Dzuğruğaşeni monastırı ilə də tanış olublar. Media tur Elia dağına, müqəddəs Pavle və Petre adına monastır kompleksinə ziyarətlə başa çatıb.

Kvemo Kartli qubernatoru Qriqol Nemsadze tədbir iştirakçılarına turizmin inkişafı istiqamətində həyata keçiriləcək işlər haqqında şəxsən məlumat verib. Tədbirdə aprel ayının sonunda baş tutacaq, planlaşdırılan mövzuya aid forumdan da söhbət açılıb.

"Bizim administrasiya davamlı olaraq turizmin inkişafı istiqamətində çalışır. Yaxın gələcəkdə Milli Turzim Agentliyi ilə birgə geniş miqyaslı turistik forum keçiriləcək. Forumda regionun turstik baxımdan potensialını müzakirə edəcəyik. Bizim işimizin əsas üstünlüklərindən birini bələdiyyələrdə müvafiq infrastrukturun qurulması təşkil edir. Artıq bir neçə əhəmiyyətli layihə həyata keçirilib, bəzilərində proses davam edir. Qeyd edim ki, bələdiyyələr regionun inkişafı üçün 2019-2021-ci illərin planı üzərində fəal olaraq çalışır. Planda yüksək dərəcədə turistik infrastrukturun inkişafı üçün lazım olan işlər nəzərə alınacaq. Həyata keçirilən media turun məqsədi də bizim regionun tanıdılmasıdır. Çox vacibdir ki, cəmiyyət mövcud olan resurslar haqqında yüksək dərəcədə məlumatlı olsun. Ümid edirəm ki, birlikdə regionumuz üçün bir çox səmərəli işlər görəcəyik", - deyə Q. Nemsadze qeyd edib.

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

15 APREL 2018-Cİ İL
№005 (64)

## TBİLİSİDƏ İLK DƏFƏ "TBİLİSİ ART FAİR" YARMARKASI KEÇİRİLƏCƏK

Tbilisidə mayın 17-dən 20-dək ilk dəfə "Tbilisi Art Fair" (TAF) müasir vizual incəsənətin beynəlxalq yarmarkası keçiriləcək.

TAF yarmarkası əsasən Qara dəniz, Xəzər və Baltik regionunun müasir incəsənət nümayəndələrinin iştirakı üçün təşkil olunur.

Yarmarkada Gürcüstanla yanaşı, Azərbaycan, Rusiya, İran, Türkiyə, Belarus, Polşa, Rumıniya, Litva, Estoniya və digər ölkələrin müasir incəsənət nümayəndələrinin əsərləri nümayiş olunacaq.

Bir çox sərgi, konfrans və mədəniyyət layihələrinin nəzərdə tutulduğu tədbir "Expo Georgia" sərgi mərkəzində baş tutacaq.




## MARNEULİDƏ SƏMƏD VURĞUNA HƏSR EDİLMİŞ TƏDBİR KEÇİRİLİB




Aprelin 3-ü Marneulinin İctimai Kitabxanasında, kitabxananın "Xatırlamağa dəyər tarixlər" layihəsi çərçivəsində məşhur Azərbaycan şairi, dramaturq və ictimai xadim Səməd Vurğuna həsr olunmuş tədbir keçirilib.

Tədbirdə Marneuli bələdiyyəsinin 7 saylı ictimai məktəbinin şagirdləri iştirak ediblər. Şagirdlər şairin həyat və yaradıcılığından məlumat verərək onun seçilmiş şeirlərini səsləndiriblər. Görüşün sonunda Səməd Vurğunun həyat və yaradıcılığından bəhs edən kiçik videoçarx nümayiş olunub.

Tədbirdə Marneuli bələdiyyəsinin məktəb şagirdləri, meriyanın müvafiq şöbəsinin əməkdaşları və başqa maraqlanan şəxslər iştirak ediblər.

## QURAM ODİŞARİYANIN "PREZİDENTİN PİŞİYİ" ROMANI AZƏRBAYCAN DİLİNDƏ NƏŞR EDİLİB

Məşhur gürcü yazıçısı, dramaturqu, şairi Quram Odişariyanın Azərbaycan dilinə tərcümə olunmuş "Prezidentin pişiyi" kitabı yenidən "Qanun" nəşriyyatı tərəfindən çap olunub. Romanı Azərbaycan dilinə yazıçı, tərcüməçi Əyyub Qiyas çevirib.

"Prezidentin pişiyi" əsərinin əsas qəhrəmanları sadə suxumililər və Suxumi şəhərinin ecazkar, ekzotik təbiətidir. Romanın başlıca üstünlüyü həyat dramatizminin bədii çalarla əks etdirilməsi, oxucunu insan obrazlarının səmimiliyi ilə sehrləmək və qəhrəmanları sadə yarada bilmək ustalığıdır. "Prezidentin pişiyi" romanı həm də müəllifin müharibəyə və müharibələrə nifrətinin fərqli yanaşması, insan faciələrini özünəməxsus yumorla, ürək ağrısıyla təqdim edə bilməyi ilə maraq doğurur. Əsərin qəhrəmanı Mixail Timuroviçin simasında Qafqazın hər şəhərində, hər kəndində olan el ağsaqqalının ümumi obrazı yaradılıb.

"Prezidentin pişiyi" romanı rus, ukrayna, eston, slovak, alman, abxaz, ingilis, çex, macar, çin, polyak, türk dillərinə də tərcümə edilərək nəşr olunub.




## MART AYINDA GÜRCÜSTANA ƏN ÇOX AZƏRBAYCANDAN SƏFƏR OLUNUB



Gürcüstanın Milli Turizm Administrasiyasının məlumatına əsasən, mart ayında ölkəyə Azərbaycandan 133 448 nəfər səfər edib.

Azərbaycandan sonra Gürcüstana ötən ay ən çox Ermənistan (109 371 nəfər), Türkiyə (100 721), Rusiya (91 529) və İrandan (58 828) səfər olunub.

Bu ilin yanvar-mart aylarında Gürcüstana səfər etmiş əcnəbi ziyarətçilərin sayı illik müqayisədə 15,5% artaraq 1 463 561 nəfər təşkil edib.

Təkcə mart ayında isə qonşu ölkəyə 578 514 nəfər səfər edib ki, bu da ötən ilin analoji göstəricisindən 13,2% çoxdur.

## TBİLİSİDƏN RUSTAVİYƏ METRO ÇƏKİLƏCƏK



Tbilisi meri Kaxa Kaladze öz müsahibəsi zamanı qeyd edib ki, yaxın gələcəkdə "İbiard" şirkəti nümayəndələri ilə görüş keçiriləcək və uzunmüddətli nəqliyyat strategiyası müzakirə olunacaq.

"Müzakirədən sonra məsələnin həllinə müsbət qərar verildiyi halda Rustavi ilə Tbilisini metro nəqliyyat vasitəsi birləşdirəcək. Ona görə də, qeyd etmək istəyirəm ki, planlaşdırdığımız ideyanın həyata keçirilməsi yetərincə realdır", – deyə Kaladze bildirib.

## TANINMIŞ AKTRİSA LEYLA ABAŞİDZE DÜNYASINI DƏYİŞİB



Tanınmış gürcü aktrisası və kinorejissoru Leyla Abaşidze uzun sürən xəstəlikdən sonra, aprelin 8-i Tbilisidə, 88 yaşında dünyasını dəyişib.

Leyla Abaşidze 1951-ci ildə Tbilisi Teatr İnstitutunun aktyorluq fakültəsini bitirib. 1964-cü ildə Çeçen-İnquş ASSR-in, 1965-ci ildə isə Gürcüstan Xalq artisti fəxri adına layiq görülüb.

"Keçmişlə görüş" filmində ən yaxşı rola görə 1967-ci ildə Cənubi Qafqaz Respublikaları və Ukrayna kinofestivalının diplomu ilə təltif edilib. 2010-cu ildə aktrisa Gürcüstanın fəxri vətəndaşı adına layiq görülüb.

## QANUNSUZ KÜÇƏ TİCARƏTİNƏ GÖRƏ CƏRİMƏLƏR ÇOXALA BİLƏR

Parlamentin qanunlayihəsinə əsasə, Tbilisidə icazəsiz küçə ticarətinə dair cərimələr artır. Qanunlayihənin təsdiqlənməsi halında, fiziki və hüquqi şəxslər qanunsuz küçə ticarəti ilə məşğul olduğu halda 50 lari dəyərində məbləğlə cərimələnəcək və məhsulu müsadirə olunacaq. Mövcud olan, Tbilisidən başqa ərazi vahidlərini də əhatə edən qanunlayihəyə görə, eyni qanun pozuntusu 20 lari dəyərində məbləğlə cərimələnir və məhsul müsadirə olunur.

Hadisə təkrar olunan zaman şəxs 300 lari dəyərində məbləğlə cərimələnəcək. Qüvvədə olan qanunvericiliklə qeyd olunan halda cərimə yalnız 100 laridir.

Əgər şəxs həmin qayda pozuntusunu müvafiq orqanın səlahiyyətli şəxsinin tələbinə tabe olmamaqla bərabər edərsə onu 200 larilik cərimə, məhsulun müsadirəsi və ya 7 günə qədər həbs olunma gözləyir. Hal-hazırki qanunvericiliyə əsasən, qeyd olunan cəza 50 lari dəyərində cərimələnir, həbs müddəti isə eynidir.

Əgər qanunsuz küçə ticarəti zamanı şəxs nəqliyyat və ya ona qoşulmuş vasitədən istifadə edərsə 1000 lari dəyərində cərimə və əşyanın müsadirəsi ilə cəzalandırılacaq. Əgər qeyd olunan vəziyyətə müvafiq orqanın səlahiyyətli şəxsinin tələbinə tabe olmamaq da əlavə olunursa şəxs 2000 lari dəyərində məbləğlə cərimələnir və ya 7 günə qədər həbs edilir.

Qanunlayihəni aprelin 26-sı Parlamentin büro iclasında müzakirə edəcəklər.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı"

Redaktor: Azər Musaoğlu
Yayım Direktoru: Hacı Bəkiroğlu
Qrafik dizayn: Elsevər Əhmədov

ÜNVAN: Qardabani şəh. Kolxoz küç, 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.